http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №09 (1541) 15 may 2012 - ci il Qiyməti 20 qəpik

# Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam



*İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezident kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.*

*Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib.*

*İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

**Heydər ƏLİYEV**

# ATU-da ulu öndər Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü qeyd olunmuşdur

**◆ Mayın 8-də Azərbaycan Tibb Universitetində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə tədbir keçirilmişdir.**





Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin universitetin foyesindəki büstü önünə gül dəstələri düzmüş və xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov bildirmişdir ki, 1993-cü ilin iyun ayının 15-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlməsi səhiyyə və tibb elmi qarşısında yeni perspektivlərin açılmasına şərait yaratmışdır. Respublikanın bütün bölgələrində tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, Azərbaycan Tibb Universitetinin yeni tədris binasının, unikal akt zalının və bir sıra digər tibb obyektlərinin açılışı məhz ulu öndərin rəhbərliyi dövrünə təsadüf etmişdir. Müdrik siyasətçi Heydər Əliyevin həmişə tibb alimlərinə, həkimlərə, bütün səhiyyə işçilərinə xüsusi qayğı ilə yanaşdığını xatırladan Ə.Əmiraslanov bildirmişdir ki, ulu öndərin ideyaları onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz ölkəmizin başçısının qayğısı sayəsində tibb təhsili sistemində bir sıra uğurlu islahatlar həyata keçirilir.

Tədbirdə Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət Həsənova, ATU-nun professorları Gəray Gəraybəyli, Amalya Əyyubova və universitetin tələbəsi, Prezident təqaüdçüsü Gülnar Ağayeva çıxış edərək dövlətçiliyimizin tarixində xüsusi yeri olan, müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyat və fəaliyyətindən, xalqımız qarşısında misilsiz xidmətlərindən danışmışlar.

Bildirilmişdir ki, 1969-1982-ci illərdə ölkə həyatının bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsinin ən dolğun səhifələrini təşkil edir. Azərbaycanın müstəqilliyinin və hazırkı inkişafının möhkəm təməli məhz ümummilli lider Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır.

Qeyd edilmişdir ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqına göstərdiyi xidmətlər içərisində onun təhsil, elm və mədəniyyətin inkişafına qayğısı xüsusi yer tutur. Buna görə də dahi liderin xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

**Qəmər ƏLİQIZI**

# Heydər Əliyev nitqində poetik duyğular

**◆ Həkim-xəstə münasibətinin əsasını təşkil edən tibbi deontologiya psixoloji məqama-sözə söykənir кi, Azərbaycan nitq mədəniyyətinin formalaşmasında mühüm rola malik olan Heydər Əliyev çıxışlarının araşdırılması bu gün də aktualdır. Ulu öndərin nitqinə daxilən xas olan səmimiyyət, qətiyyət, nikbinlik, fəlsəfilikla yanaşı poetizm də xasdır.**



Poetizm Azərbaycan xalqına Böyük Yaradanın ərmağanıdır desək yanılmarıq. Poetik duyğular Heydər Əliyev nitqinin emosionallığını artırmaqla bərabər müxtəlif çeşidli auditoriyalarda özünəməxsus məna və məqsəd çalarları qazanır. Məhz, poetik duyğuların hakim olduğu nitq auditoriyaları fəth edir, qəlblərə yol açır. Poetik duyğular rəsmi dövlət başçıları ilə görüşlərdə də özünü göstərir:

"Hörmətli prezident, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl. Siz dediniz ki, Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edəcəksiniz ki, Azərbaycanın da qəlbi daim Türkiyənin qəlbi ilə döyünür.

Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir. Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir, Türkiyənin daha da inkişaf etməsini istəyir.

Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildi. Çünki bu içdən gələn, qəlbdən gələn hisslərdir".

Buradakı "Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür", "sevgi hissi bəsləmək", "bu hisslər heç vaxt sönməyəcəkdir", "bu içdən gələn, qəlbdən gələn hisslərdir" frazeoloji söz birləşmələrinin köməyi ilə nitq daha da güclənir.

Poetiklik Heydər Əliyev nitqində sadə məişət üslubu ilə təmin olunur: "Qaçqın olasan, evini, eşiyini, obanı, varını-yoxunu itirəsən, qohuməqrəbanının bir hissəsini itirəsən, şəhidlik verəsən. Və bu cür nikbin vəziyyətdə yaşayasan-bu, məhz Azərbaycan xalqına xas olan bir xüsusiyyətdir. Məhz bizim xalqımıza xas olan bir xüsusiyyətdir".

Yuxarıdakı sadə cümlələrdə Azərbaycan xalqının xarakteri, vahid lider ətrafında birləşmək əzmi, çətin, ağır vəziyyətlərdə belə nikbinliyini saxlamaq xüsusiyyətləri ifadə olunmuşdur.

Poetik çıxışların gücü onun yaddaşlara hopmasındadır. Poetizm insan təbiətinə, xüsusilə də Azərbaycan insanının təbiətinə xasdır:

"Hər bir insan üçün dünyada uşaqlardan istəkli heç bir şey ola bilməz. Mən də həyatımda daim uşaqları sevmişəm, öz balalarımı da sevirəm. Amma, sizin hamınız mənim balamsınız. Sizi öz balam kimi sevirəm və sizi öz balam hesab edirəm. Siz burada dəfələrlə mənə müraciət edərək "Heydər baba" dediniz. Mən bununla fəxr edirəm. Mənim, deməli, Azərbaycan dövlətinin bu qədər gözəl övladları var və onlar üç yaşında, dörd, beş, altı yaşında belə istedada malikdirlər. O şeirləri ki, siz deyirsiniz, gənclərin də çoxu deyə bilməz. Siz ki, belə gözəl rəqs edirsiniz, bunu çoxları edə bilməz. O mahnıları ki, siz oxuyursunuz, onları çoxları oxuya bilməz.

Hər biriniz mənim üçün əzizsiniz, doğmasınız. Bu uşaqlıq dövrünüzdə hər birinizə şən, sağlam, firavan həyat arzulayıram".

Heydər Əliyev nitqindəki poetiklik sərbəstliyə söykənir. Auditoriya sanki sərbəst vəzndə ilahi şeirin sehrinə düşür. "Onlar üç yaşında, dörd, beş, altı yaşında belə istedada malikdirlər". Sonrakı cümlələrdə "deyə bilməz", "oxuya bilməz", "edə bilməz" poetik ifadələri bir babanın balalarını sevməsidir, onları gələcək günlərimizə hazırlamasıdır.

İnsan andına sədaqətli olmalıdır. Respublika ailə-sağlamlıq mərkəzinin açılışındakı çıxışda poetik dillə andı unutmamaq tövsiyə edilir. Vətənin, dövlətin başının üstünü qara buludlar alanda anda sədaqətin xüsusi önəm daşıdığını hər birimizə anladır:

"Təsadüfi deyil ki, dünyada heç bir sahənin işçiləri üçün səhiyyə işçilərinin Hippokrat andı kimi andı yoxdur. Heç bir sahədə and yoxdur. Orduya gedən sədaqətlə xidmət etmək üçün and içir, başqa hərbi işdə xidmət edən and içir. Başqa sahələrdə isə heç kəs and içmir. Amma Hippokratın qədim dövrdən bizə qalan andı məhz səhiyyə işçiləri üçündür, həkimlik peşəsini seçənlər üçündür. Bu andı, ənənəni heç vaxt unutmaq lazım deyildir. Xüsusən indiki dövrdə bu prinsiplərin çox əhəmiyyəti var".

Heydər Əliyev nitqində poetiklik fəlsəfi düşüncələrlə çulğalaşır: "Bəli, məni işdən çıxartdılar, o günləri, o çətinlikləri gördüm, onların hamısına dözdüm. Bunlar hamısı həyatdır. Həyatın yüksəlişi də olur, aşağıya düşməyi də olur, enişi də, yoxuşu da, çətinliyi də, gözəl günləri də olur".

"Bəli" təsdiq ədatı ilə başlayan bu lakonik cümlələrdə dialektikanın əksliklərin vəhdət və ziddiyyət qanunu, necə deyərlər, böyük natiqin dilində işə düşür. "Yüksəliş"-"aşağıya düşmə", "eniş"-"yoxuş", "çətinlik"-"gözəl günlər" əksliklərinin elə həyat olduğu anlamını auditoriya ulu öndərin nitqində bir daha eşidir.

Başqa bir məqamda poetiklik kövrəklikdədir: "Lakin nə qədər müharibə aparmaq olar? Adamlar mənasız yerə həlak olurlar, bu barədə daha danışa bilmirəm".

Burada "lakin" bağlayıcısı ilə başlayan müharibəyə nifrət dolu ritorik sual izahedici cümlə ilə davam etdirilir. Natiq "daha" qüvvətləndirici ədatından istifadə edərək fikrini kövrək bir notla bitirir.

Beləliklə, analitik təfəkkürə, məntiqi ardıcıllığa söykənən, Azərbaycan dilinin dərin laylarına bələdçiliyi ilə seçilən, fenomenal və özünəməxsus Heydər Əliyev nitqinin tədqiqi bu gün də ziyalılarımızın qələm borcudur.

**Nağdəli ZAMANOV,**
*ATU-nun I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# BÖYÜK ELMİ ŞURADA

**◆ Aprelin 30-da Böyük Elmi Şuranın növbəti yığıncağı oldu. Yığıncağı universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırdı.**

Müzakirələrdən öncə Böyük Elmi Şuranın iclasına qatılan Əməkdar incəsənət xadimi, Beynəlxalq Televiziya və Radio Akademiyasının akademiki, "Bilik" Maarifçilik, Mədəniyyət və İnformasiya Mərkəzinin sədri Cəmil Quliyevə söz verildi. O, rəhbərlik etdiyi mərkəzin 15 fevral 2012-ci il tarixli qərarına əsasən ATU-nun rektoru, akademik Əhliman Əmiraslanovun elm və maarifçilik sahəsində görkəmli xidmətlərinə görə "Akademik Yusif Məmmədəliyev" adına medalla təltif olunduğunu dedi və medalı dünya şöhrətli alimə təqdim etməkdən qürur duyduğunu bildirdi.



Böyük alimin adını daşıyan bu yüksək mükafata layiq görülməsini ona göstərilən etimad kimi dəyərləndirən rektor qeyd etdi ki, hələ 2010-cu ildə belə bir qərar qəbul olunmuşdu. O vaxt "Bilik" Maarifçilik, Mədəniyyət və İnformasiya Mərkəzinin sədri Elşad Quliyev zəng vuraraq mükafatı şəxsən təqdim edəcəyini söyləmişdi. İndi çox məmnunam ki, həmin mükafatı onun bütün sahələrdə davamçısı olan Cəmil Quliyevdən alıram.


Fotolar Cənnətalı Çingizindir

Yaxın günlərdə dünyasını dəyişən istehsalat təcrübəsi dekanının müavini, stomatologiya kafedrasının dosenti Elvar Əmrahovun xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı və əvvəlcə II müalicə-profilaktika fakültəsinin dekanı, dosent Taryel İsmayılovun "ATU-nun II müalicə-profilaktika fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə məruzəsi dinlənildi.

Müalicə fakültəsində tələbələrin sayının ilbəil artaraq 1973-cü ildə 4500 nəfərə çatdığını və bununla əlaqədar tədris-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə 1974-cü ildə II müalicə fakültəsinin təşkil edildiyini vurğulayan T.İsmayılov bildirdi ki, hal-hazırda fakültədə 1659 tələbə vardır. Onlardan 1425-i Azərbaycan, 174-ü rus, 60-ı isə ingilis bölməsində təhsil alırlar. Tələbələrdən 157 nəfəri xarici ölkə vətəndaşlarıdır. Özündə 16 kafedranı və 1 kursu birləşdirən fakültədə 303 nəfər professor-müəllim heyəti çalışır ki, bunlardan 1 nəfəri akademik, 2 nəfəri AMEA-nın müxbir üzvü, 27 nəfəri elmlər doktoru-professor, 88 nəfəri elmlər namizədi-dosent, 78 nəfərin elmi dərəcəsi vardır ki, 16 nəfəri elmlər namizədi-assistent, 16 nəfəri baş müəllim, 1 nəfəri tibb xidməti polkovnikidir. Professor-müəllim vəzifəsində çalışan 231 nəfərin elmi dərəcəsi vardır ki, bu da müəllim heyətinin 76,2%-ni təşkil edir.

Dekanlığın işinin əsasını təşkil edən tədris prosesinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərdən danışan fakültə dekanı bir sıra kafedralarda gələcək mütəxəssislərin peşə hazırlığının yaxşılaşdırılmasına yönəldilmiş ən müasir müayinə metodlarının tətbiq olunduğunu dedi.

T.İsmayılov 2010/2011-ci tədris ilindən başlayaraq müalicə-profilaktika fakültəsində də tədrisin kredit sistemi ilə aparıldığını söyləyərək bu sistemin kəmiyyət və keyfiyyət göstəricilərinə müsbət təsirindən söhbət açdı: "2010/2011-ci tədris ilinin həm qış, həm də yay sessiyasında ilkin mənimsəmə əvvəlki illərlə müqayisədə təxminən 5-8%, keyfiyyət göstəricisi isə 9-16%azalmışdır. 2011/2012-ci tədris ilinin qış sessiyasının mənimsəmə göstəricilərinin təhlili zamanı isə məlum olmuşdur ki, həm kəmiyyət, həm də keyfiyyət göstəricisi ötən ilin müvafiq semestri ilə müqayisədə artmışdır. Bu artım əsasən kredit sistemi ilə tədris aparılan I və II kursların hesabına olmuşdur."

Fakültənin tədris-metodik, elmi, tərbiyəvi işləri haqqında da şura üzvlərinə ətraflı məlumat verən dekan bundan sonra da bütün bilik və bacarıqlarını yüksək ixtisaslı, mənəvi cəhətdən saf, milli dövlətçiliyimizə sədaqətlə xidmət edən mütəxəssislərin hazırlanmasına sərf edəcəklərini söylədi.

AMEA-nın müxbir üzvü, urologiya kafedrasının müdiri, professor Südeyif İmamverdiyev, ümumi cərrahiyyə kafedrasının müdiri, professor Çərkəz Cəfərov, fizioterapiya və idman təbabəti kafedrasının müdiri, professor Əlişir Musayev, şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri, professor Bahadur Baxşıyev və psixiatriya kafedrasının müdiri, professor Gəray Gəraybəyli çıxış edərək hesabatı qənaətbəxş qiymətləndirdilər.

Ə.Əmiraslanov müzakirələrə yekun vuraraq qeyd etdi ki, universitetdə əsas aparıcı qüvvə dekanlıqlardır. Dünya təcrübəsinə baxsaq görərik ki, dekan fakültənin rektorudur, hətta maliyyə fəaliyyətinə də cavabdehdir. Bizdə mövcud təlimat hələ buna imkan verməsə də, dekanların səlahiyyətlərini artırmalıyıq. Mən həmişə çalışmışam ki, dekanlar müstəqil işləsinlər, fakültənin problemlərini özləri həll etsinlər.

Südeyif müəllim incə bir məqama toxundu. Fakültə elmi şuralarının diskussiya şəraitində keçməsi müsbət haldır. Fikir ayrılıqları təbiidir. Əgər kimsə rektora, dekana ağıllı bir təklif deyirsə, biz ondan yararlanmalıyıq. Geniş müzakirələrin aparılması işin xeyrinədir.

Rezident rəhbərlərinin öz işlərinə məsuliyyətlə yanaşmasının vacibliyindən danışan rektor Əlişir Musayevin toxunduğu məsələyə də münasibət bildirərək televiziyalarda tibbə aid reklam xarakterli yanlış məlumatların baş alıb getməsindən narahatlığını dilə gətirdi. Qeyd etdi ki, dövrün tələbi ilə ayaqlaşmaq lazımdır. Çox təəssüf ki, siz kənarda dayanırsınız, nəticədə səriştəsiz adamlar məqsədli şəkildə yaranan boşluğu doldururlar. Xüsusilə, Tədris-Terapevtik Klinikanın televiziyalarda, mətbuatda reklamını gücləndirməyə ehtiyac olduğunu, klinikanın imkanlarını əks etdirən reklam çarxları hazırlamağın, ayrı-ayrı mütəxəssisləri bu işə cəlb etməyin zəruriliyini vurğuladı.

Müxtəlif məsələlərin müzakirəsinə də yer ayıran Böyük Elmi Şura ATU-nun normal fiziologiya kafedrasının müdiri, b.e.d., professor Arif Məmmədovun Milli Aviasiya Akademiyasının Elmi Şurası tərəfindən "Fiziologiya" ixtisası üzrə, Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru, t.e.d., professor Əlişir Musayevin Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun Elmi Şurası tərəfindən "Tibb" ixtisası üzrə AMEA-nın müxbir üzvlüyünə irəli sürülmüş namizədliklərini dəstəklədi.

Universitetin elmi katibi, professor İbrahim İsayev Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələbinə uyğun olaraq müdafiəyə təqdim olunmuş dissertasiya işlərinin "Antiplagiat" proqramı ilə yoxlanıldığını şura üzvlərinin diqqətinə çatdırdı.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# REKTOR VETERANLARLA GÖRÜŞDÜ



Hər il olduğu kimi bu il də ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun II Dünya Müharibəsində faşizm üzərində qələbənin 67-ci ildönümü - 9 may Qələbə günü münasibətilə universitetimizdə çalışan müharibə veteranları ilə ənənəvi görüşü oldu. Onların sıralarının seyrəlməsindən təəssüfləndiyini deyən rektor bildirdi ki, siz müharibə illərində böyük şücaət göstərməklə yanaşı, dinc quruculuq dövründə də yaxşı çalışmış, öz sahənizdə vətəndaşlıq borcunuzu layiqincə yerinə yetirmisiniz. Ona görə də fəaliyyətinizi yüksək qiymətləndiririk. Universitet kollektivi və rəhbərlik adından, şəxsən öz adımdan hər birinizi təbrik edir, sizə möhkəm cansağlığı arzulayıram. Veteranların hər birinə üç yüz manat məbləğində pul mükafatı ayrıldığını bildirən rektor qeyd etdi ki, tarixin bütün dövrlərində dövlətimiz və xalqımız həmişə bu insanlara böyük ehtiram bəsləyib, hörmətlə yanaşıb.

Onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını söyləyən veteranlar görüşün sonunda rektorla xatirə şəkli çəkdirdilər.

Qeyd edim ki, hal-hazırda universitetimizdə II Dünya Müharibəsi veteranı Rüstəm Mirzəyev və arxa cəbhə veteranı Rəhim Orucov çalışırlar.

**F.MƏMMƏDOV**

# Tələbələrimiz «Frankofoniya» imlasını yazmışlar

◆ **Bir neçə ildir ki, ənənəvi olaraq Fransanın respublikamızdakı səfirliyi Belçika, İsveç və digər ölkələrlə birgə Fransız dili bayramı münasibətilə «Frankofoniya» günləri adı altında bir sıra mədəni-kütləvi silsilə tədbirlər keçirirlər.**





Bu bayramla əlaqədar Bakıda səfərdə olan tanınmış yazıçı xanım Silvi Jermən mayın 12-də ATU-nun tələbələri ilə ədəbi görüş keçirmiş və «Frankofoniya» imlasını oxumuşdur. Sonda tədbirdə iştirak edən Fransa, İsveçrə və Belçikanın ölkəmizdəki səfirləri fərqlənən tələbələrə xüsusi mükafatlar vermiş, imlanı ən yaxşı yazmış bir nəfər isə Fransaya səyahət turu qazanmışdır.

Məlumat üçün bildirək ki, 1984-cü ildə çap olunmuş 700 səhifəlik „Les livres des nuits" adlı birinci silsilə romanından sonra Silvi Jermən əksər hallarda ədəbi mükafatlara layiq görülən çoxsaylı əsərlər yazır. 2000-ci ildə müxtəlif janrlarda: səyahət xatirələri, dini mövzuda esse və fotoalbom çap etdirir. 2002-ci ildə onun „La Chanson des Malaimants" adlı yeni romanı nəşr olunur". 2005-ci ildə işıq üzü görən „Magnus" romanı oxucular tərəfindən hərarətlə qarşılanır və litsey tələbələrinin Qonkur Mükafatına layiq görülür. 2007-ci ildən inkişaf etməkdə olan ölkələrdə biliyə çıxışı asanlaşdırmağı qarşısına məqsəd qoymuş Sərhədsiz kitabxanalar adlı qeyri hökumət təşkilatına dəstək verir.

**M.ƏLƏKBƏROV**

# İSTEHSALAT MÜŞAVİRƏSİ

◆ **Bu günlərdə pediatriya fakültəsinin ənənəvi istehsalat müşavirəsi keçirilmişdir. Müşavirə yay imtahan sessiyasına həsr olunmuşdur.**



Yığıncağa sədrlik edən fakültə dekanı, dosent Nəriman Nağıyev fakültədə tədris prosesinin vəziyyəti və dekanlığın apardığı işlərlə bağlı məlumat vermək üçün II kurs tələbələri üzrə dekan müavini, dosent Almaz Qaragözovaya söz verdi.



Xanım A.Qaragözova bildirdi ki, hal-hazırda pediatriya fakültəsində 152 nəfər tələbə təhsil alır. II kurs tələbələrinin dərsləri mayın 30-na kimi davam edəcək. Mayın 31-dən iyulun 4-ə qədər olan müddətdə tələbələr 8 fəndən imtahan verəcəklər. Almaz xanım keçən illə müqayisəli şəkildə tələbələrin bu il dərs buraxma saatlarını da diqqətə çatdırmışdır.

ATU-nun Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev mövcud problemlərdən, həmçinin test üsulu ilə keçiriləcək yay imtahan sessiyasına hazırlığın vəziyyətindən bəhs etdi.

Müşavirədə çıxış edən «Virtual» test mərkəzinin müdiri, dosent Şahin Bayramov builki imtahanlarda bir sıra dəyişikliklərin olacağını da diqqətə çatdırdı.

Sonda tələbələrin fikirləri dinlənildi və onları düşündürən bir sıra suallara da aydınlıq gətirildi.

**A.İSMAYILOVA**

# «AİLƏ TƏBABƏTİ» KİTABINA DAİR BƏZİ MÜLAHİZƏLƏR

◆ **Azərbaycan Tibb Universitetinin kitab fondu daha bir lazımlı tibbi kitabla zənginləşmişdir. 20 ildən artıq bir müddətdə ATU-nun əvvəllər «Poliklinik terapiya», hazırda isə «Ailə təbabəti» adlanan kafedrasının müdiri vəzifəsini uğurla yerinə yetirən Mustafa Salih oğlu Salihovun ilk dəfə qələmə alınan «Ailə təbabəti» adlı kitabı artıq işıq üzü görmüş, oxucuların ixtiyarına verilmişdir.**

Son illərdə Azərbaycan tibb təhsili sistemində aparılan islahatlar bütün fakültələrin tədricən Avropa təhsil sisteminin Boloniya sahəsinin Kredit sisteminə keçidini reallaşdırmışdır. Artıq ATU-nun hazırda fəaliyyətdə olan 77 kafedrasının hamısı Kredit sisteminin tələblərinə uyğun qaydılarla yaşayır. Bu sistem yeni dərslik və dərs vəsaitlərinin yazılmasını kafedralar qarşısında ən vacib tələblərdən biri kimi qoyur. Bu tələblər kontekstindən yanaşdıqda Salihov Mustafa müəllimin «Ailə təbabəti» adlı kitabının çap etdirməsini vaxtında atılmış mühüm addım kimi qiymətləndirmək yerinə düşərdi. 2011/2012-ci tədris ilində ATU-da diplomdansonrakı hazırlığın rezidentura sisteminə keçidinə start verilməsində tələbələrin diplomaqədərki hazırlığında bu kitaba nə qədər böyük tələbatın yarandığını etiraf etməyə ehtiyac qalmır. Bununla əlaqədar olaraq keyfiyyətli ailə həkimlərinin hazırlanması problemi buna bilavasitə cavabdeh kafedranın qarşısında daha məsul vəzifələr qoyur.

M.S. Salihovun «Ailə təbabəti» kitabı ölkəmizin tibb tarixində bu miqyasda və bu məzmunda yazılmış ilk kitabdır. Kitab müəllif haqqında məlumatdan, «Ön söz» əvəzi təqdimatdan, girişdən, 10 fəsildən və istifadə edilən ədəbiyyat siyahısından ibarətdir. Kitabın ayrı – ayrı fəsilləri «Ailə təbabəti» kafedrasında tədris edilən mövzular əsasında, fənnin tədris planı və proqramına uyğun tərtib edilmişdir. «Ailə təbabətinin tarixi» adlı I fəsildə Ümumdünya Səhiyyə Təşkilatının formalaşmasından, onun bu sahədə yerinə yetirdiyi məqsədyönlü işlərdən, əhaliyə göstərilən tibbi – sanitariya xidmətindən, sahə həkimliyindən hazırkı ailə təbabətinə doğru gedən böyük inkişaf yolunun tarixi mərhələlərindən bəhs edilir.




«Ailə həkimi, onun funksiyaları, hüquq və vəzifələri» adlanan II fəsildə ailə həkiminin məqsədinin son nəticədə cəmiyyətin tərəqqisinə, inkişafına nail olması kimi xeyirxah bir amala xidmət etməsi zərurəti haqqında ətraflı məlumat verilir, ailə həkiminin hüquq və vəzifələri incəliklərinə qədər açıqlanır.

Kitabın III fəsli «Poliklinika – səhiyyə sisteminin əsas hissəsidir. Sahə, ümumi təcrübə və ya ailə həkiminin peşəkarlığı», IV fəsli «Ümumi təcrübə həkimi və ya ailə həkiminin işində şəxsiyyət, etika, deontologiya, etnik – milli-dini, psixoloji-pedaqoji, kibernetika və kompyuterləşdirmə məsələləri, xalq təbabətinə münasibət», V fəsli «Ümumi praktika və ya ailə həkiminin təşkilati işinin səviyyəsi. İctimai sağlamlıq məfhumu», VI fəsli «Ailədə ilkin tibbi – profilaktikanın səciyyəsi», VII fəsli «Ailə həkiminin iş təcrübəsində təməl elmlər», VIII fəsli «Ümumi patoloji proseslər. Klinik sindromlar», IX fəsli «Klinik təbabət fənləri», X fəsli «Təxirəsalınmaz tibbi hallar, reanimasiya, manipulyasiya və prosedurlar» kimi mühüm məsələlərə həsr edilmişdir. Kitabın illüstrasiyası 28 rəngli şəkildə öz əksini tapmışdır ki, bu da mətnin anlaşılmasında yardımçı rol oynayır.

«Ailə təbabəti» kafedrasının müdiri M.Salihovun müəllifi olduğu «Ailə təbabəti» kitabı bu fənn üzrə proqramla diploma qədərki hazırlığın tədrisini aparmaq üçün lazım olan ilk dərs vəsaitdir. Kitabda ümumi təcrübə həkiminin (ailə həkimi) qarşısında qoyulan məqsəd və onların əsas vəzifələri, hüquqları, cəmiyyətimizdə oynadıqları rol, səhiyyənin ilkin zənciri olan müalicə-profilaktika müəssisəsi kimi poliklinikanın strukturu, işi, HMK, TSEK ətraflı işıqlandırılmışdır. Kitabda tez-tez rast gələnən xəstəliklərin profilaktika, diaqnostika və müalicəsinə, təxirəsalınmaz vəziyyətlərdə ilkin tibbi - sanitariya yardımının əsas istiqamətlərinə geniş yer verilmişdir. Ümumi ixtisas həkiminin peşəkar bacarıq səviyyəsi, ailə həkimi tərəfindən ambulator-poliklinik şəraitdə və evdə icra olunan diaqnostik, müalicəvi, profilaktik, sağlamlaşdırıcı bərpa tədbirlərinin həcmi, sanator-kurort müalicəsi üçün xəstələrin seçilməsi müəllif tərəfindən ətraflı aydınlaşdırılmışdır. Kitabda «herontologiya», «heriatriya» anlayışlarının izahı verilmiş, həkim etikası, tibbi deontologiya, tibbi və ailə psixologiyası məsələlərinə, sağlam həyat tərzinin məzmununa, onun formalaşmasına xüsusi yer ayrılmışdır. Xalq təbabəti, bəzi qeyri-ənənəvi müalicə üsulları da diqqətdən kənarda qalmamışdır. Ailə həkiminin yüksək ixtisaslı mütəxəssis kimi formalaşmasında kompyuterizasiyanın böyük rol oynamasını müəllif xüsusilə vurğulamışdır.

Beləliklə, əminliklə demək olar ki, alimin «Ailə təbabəti» kitabı tələbələrimizin yüksək ixtisaslı bir kadr kimi formalaşmasında əvəzolunmaz rol oynayacaqdır.

Kitabın əvvəlində AMEA-nın vitse – prezidenti, Geologiya İnstitutunun direktoru akademik A.Əlizadənin və Uşaq Fondunun sədri, Sosialist Əməyi Qəhrəmanı akademik İ.İbrahimovun M.Salihovun «Ailə təbabəti» adlı əsərinin məziyyətlərinə və müəllifin özünün şəxsi keyfiyyətlərinə həsr etdikləri nüfuzlu rəyin dərc olunması həm kitabın əhəmiyyətinə və populyarlığına, həm də onun müəllifinin geniş oxucu auditoriyasına yatımlı təqdiminə əlavə rəng verir, zənginləşdirir.

**Mübariz Allahverdiyev,**
*İnsan anatomiyası kafedrasının professoru,*
*Respublikanın əməkdar müəllimi,*
*tibb elmləri doktoru*

# Ulu öndər

*Unudulmaz Heydər Əliyevin əziz xatirəsinə*

Ulu öndər, ürəklərə
Həkk olunan bir tarixsən.
Amallara, diləklərə
Yaddaş olub qalan sənsən.

Hara baxdım bir nişanən,
Bir naxışın oyulubdur.
Sənin canlı bir heykəlin
Ürəyimdə qoyulubdur.

Sən Babəkdən, Xətaidən,
Koroğludan güc almısan.
Millətinin, elin dərdin
Çəkə-çəkə ucalmısan.

Hər şəhərdə, hər obada
Silinməyən izin qalıb.
Ulu öndər, bu dünyada
Unudulmaz sözün qalıb.

Yerişində, duruşunda,
Baxışında olan qürur,
Gözlərimin qarşısında
Şax qamətin yenə durur.

Sən dahisən, sən ulusan,
Səni sevir millətimiz.
Sən bu xalqın haqq yolusan,
Nicat yoludur kölgəniz.

Tanıtdırdın sən cahana,
Dünya boyda bir ölkə var.
Özü azad, müstəqildir,
Azərbaycan, şanlı diyar.

Millətimiz, sərvətimiz
Gəl-gəl deyir insanlara.
Yayılıbdır qüdrətimiz,
Bəlli olub hər diyara.

Səni Allah bəxşiş edib
Azərbaycan ölkəsinə.
Sən vaxtında gəlməsəydin
Kölə idik özgəsinə.

Böhtanlara, yalanlara,
Xainlərə qənim oldun.
Haram pulu olanlara,
Zalımlara qənim oldun.

Qoyduğun yol elə yoldur,
Biz o yolu gedəcəyik.
Hər bir kəlmən bir qanundur,
Onu məşəl edəcəyik.

Haram olsun zəhmətini,
Əməyini bilməyənə.
Haram olsun etdiyini
Kor gözüylə görməyənə.

Adamları xoşbəxt, azad,
Hələ gələn dövranım var.
Yadigarın, davamçınız,
İlhamına inamım var.

Adın başda tutub qərar,
Bu dünyada qalasısan.
Hər kəsin bir atası var,
Sən də elin atasısan.

Sənə "ölüb" demək olmaz,
Ulu öndər, sən ölməzsən!
Sənə "köçüb" demək olmaz,
Elbrusun qəlbindəsən!
Əbədisən, əbədisən!!!

**Elbrus ABBASOV,**
***Laçın rayonu***

# Əsaslı Kitabxanada yığıncaq keçirildi

◆ **Mayın 8-də Əsaslı Kitabxanada Qrup Həmkarlar Təşkilatının yığıncağı keçirildi.**

Yığıncağa sədrlik edən Əsaslı Kitabxananın direktoru Ziyafət Eminova öncə bu gün doğma diyarlarımızdan biri Şuşanın erməni qəsbkarları tərəfindən işğal olunduğunu qeyd etdi, bu döyüşlərdə həlak olanlara rəhmət dilədi. Həlak olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Eyni zamanda ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü ehtiramla anıldı. Bundan sonra isə Z.Eminova faşizm üzərində qələbənin qazanılmasında Azərbaycanın xüsusi rolundan söhbət açdı.





Əsaslı Kitabxana Həmkarlar Təşkilatı bürosunun sədri Adifə Fətəliyeva nizam-intizam məsələlərindən danışaraq diqqəti işə gecikmə, işdən qalma hallarına yönəltdi.

Sonda direktor Z.Eminova fondlarda görülmüş işlərdən, yaradılmış səliqə-səhmandan bəhs edərək, bu işdə əməyi olan hər kəsə minnətdarlığını bildirdi, kitabxanada tətbiq olunan İRBİS proqramında gözlənilən yeniliklər haqqında məlumat verdi.

Yığıncaqda çıxış edən HİK İnzibati Təsərrüfat Hissəsi Həmkarlar İttifaqı Təşkilatı ATU bürosunun sədri Firdovsi Məmmədov burada toxunulan məsələlər barədə öz fikirini söylədi. Xüsusilə, yardım almaq istəyənlərə müraciət üçün zaman məsafəsini nəzərə almağı məsləhət gördü.

Sonda ATU-nun HİK-nin geniş tərkibli yığıncağına nümayəndələr seçildi.

**Saşa ƏLİYEV**

◆ **Bu günlərdə patoloji anatomiya kafedrasının professoru Məmməd Cahangirovun təcrübəli arıçı Qədir Qafarovla birgə yazdığı «Təbabətin sirləri» adlı kitabı işıq üzü görüb. « Tanınmış yazıçı Eldar İsmayılın redaktorluğu ilə çap olunan bu kitab ana təbiətin bizə verdiyi qiymətsiz sərvət- arı və arı məhsullarından bəhs edir.**

# Arı əvəzolunmaz təbibdir




Balverən arılar (digər növləri də mövcuddur) təbiətdə xüsusi mövqe tuturlar və hasil etdikləri məhsullar: bal, mum, arı çörəyi, ana arı südü, zəhər, arı yapışqanı (propolis) sayəsində nadir hallarda bakteriya və viruslar tərəfindən zədələnirlər.

İnsan qədim zamanlardan balverən arı yetişdirir və onun məhsullarından müalicə məqsədi ilə istifadə olunmasında böyük təcrübə toplanmasına baxmayaraq, insan orqanizminə onların təsirinin bir çox xüsusiyyətləri axıra kimi öyrənilməyib. İldən-ilə bu məhsulların yeni-yeni müalicəvi xüsusiyyətləri aşkar olunur, onların tətbiq sahəsi genişlənir. Digər müalicəvi maddələrin gücsüz olduğu yerdə müsbət effekt əldə etməyə imkan verən vitamin və mikroelementlərin optimal ahəngi onların tərkibində aşkar olunub. Müasir təbabətdə ildən-ilə təbii məhsullara olan tələbat artır və arıçılıq məhsulları bu tələbatı kifayət qədər ödəmək iqtidarındadır.

Beləliklə, təbiət bizə qiymətsiz sərvət - arıları və arı məhsullarını verib, lakin çoxlarına bu məhsullardan yalnız biri - bal tanışdır. Arılar tərəfindən hasil olunan digər məhsulları da öz üzərinizdə sınaqdan keçirin və onların müalicəvi xüsusiyyətlərindən əmin olacaqsınız. Arı əvəzolunmaz təbibdir. Unutmaq lazım deyil ki, arı məhsulları və onlardan hazırlanmış müalicəvi preparatlar, bir qayda olaraq, spesifik müalicə vasitələri deyil, onlar ancaq orqanizmin ümumi müqavimətini yüksəldir və elə bununla da onların müalicəvi təsiri əsaslanır. Həmçinin onu da yadda saxlamaq lazımdır ki, onların hamısı, xüsusilə arı zəhəri və ana arı südü çox aktiv maddələrdir və düzgün dozalandırılmadıqda və ya yüksək həssaslıq zamanı toksiki ola bilərlər. Ona görə də qeyd olunan məhsulları müalicə məqsədi ilə həkimin göstərişi və nəzarəti altında qəbul etmək məsləhət görülür.

Ümidvarıq ki, bu kitab bal və digər arı məhsullarının müalicəvi xüsusiyyətləri haqda dəyərli bilgilər verəcək və hər bir ailənin stolüstü kitabına çevriləcəkdir.

**M.CAVADOV**

# Dünyadakı yüz milyonlarla atın qədim vətəni müəyyənləşdirilmişdir

◆ **Hazırda dünyadakı yüz milyonlarla atın qədim vətəni müəyyənləşdirilmişdir.**

Araşdırmalar nəticəsində aşkar edilmişdir ki, atların ulu "əcdad"ları 6 min il əvvəl rus çöllərində otlayan və qədim insanın ilk əhliləşdirdiyi ayğırlarla madyanlar olmuşdur.

AzərTAc xəbər verir ki, indiki Rusiya, Ukrayna və Qazaxıstan çöllərində əhliləşdirilmiş atlarla bağlı 16 il davam etmiş tədqiqatlar zamanı Şərqi Avropa və Asiyada 300-dən çox at laboratoriya tədqiqatlarında öyrənilmişdir.

Alimlər atların daha geniş arealda insan tərəfindən əhliləşdirildiyini düşünürdülər. İngiltərədəki Kembric Universitetinin professoru Vera Uarmutun başçılıq etdiyi tədqiqat qrupunun illərlə davam edən araşdırmalarının nəticəsinə görə, indiki atların qədim əcdadları Qazaxıstan, Cənub-qərbi Rusiya və Ukrayna ərazisində insan tərəfindən ev heyvanına döndərilmişdir.

# Mütəxəssislər insan zehnini oxuya bilən qurğu hazırlamışlar

◆ **Qurğu iflicdən əziyyət çəkən xəstələrə yardım məqsədi ilə yaradılmışdır.**

AzərTAc xarici KİV-ə istinadla xəbər verir ki, rusiyalı elm adamları iflic olan xəstələrə kömək məqsədi ilə onların zehnini oxuya bilən qurğu düzəltmişlər. Fikirləri əmələ çevirən qurğu beyindəki neyronların verdiyi siqnalları kimyəvi reaksiyalara çevirir. Uzaqdan idarəedici vasitəsilə istifadə olunan bu qurğu daha sonra kompüterə bağlanır və bu cihazda kimyəvi reaksiyalar hərflərə çevrilir. Bu qurğu zehnində problem olan insanlara kömək etməklə yanaşı, müəyyən müddət ərzində onların fikirlərini toplamalarına, hətta kompüter oyunlarına da imkan verəcəkdir.

## Etibarsız sayılır

Əczaçılıq fakültəsinin IV kurs, 801 «a» qrup tələbəsi Bulut Tahanın adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 760 «a» qrup tələbəsi Mirzəyev Mirzə Şirvani oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 763 «b» qrup tələbəsi Quluzadə Orxan Rəfail oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin III kurs, 616 «b» qrup tələbəsi Nəsirli Aytac Rəfael qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 366 «b» qrup tələbəsi Abdulla Tuqay Ceyhun oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

«Təbib» qəzetinin kollektivi, əczaçılıq fakültəsinin dekanlığı, insan anatomiyası, latın dili, patoloji fiziologiya, nomal fiziologiya, tibbi-bioloji fizika və informatika, bioloji kimya, mikrobiologiya, ümumi və toksikoloji kimya, əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili, operativ cərrahlıq və topoqrafii k anatomiya, Azərbaycan tarixi, iqtisadi nəzəriyyə və hüququn əsasları, tibbi biologiya və genetika, histologiya, sitologiya və embriologiya və Mülki Müdafiə tibb xidməti kafedralarının əməkdaşları farmakologiya kafedrasının müdiri, professor Musa Qəniyevə atası

**Hacı Mehdi müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın müdiri, professor Musa Qəniyevə atası

**Hacı Mehdi müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları Zəminə xanım Mustafayevaya əzizi

**Namiq Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fəlsəfə kafedrasının əməkdaşları kafedranın baş müəllimi işləmiş

**İbrahimov Nişirəvan Bədəl oğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya kafedrasının əməkdaşları kafedranın assistenti Elnurə xanım Musayevaya qardaşı

**Elçinin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları uşaq xəstəlikləri kafedrasının assistenti

**Yulya Qasımovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Hərbi Tibb Fakültəsinin əməkdaşları HTF-nin kargüzar rəisi Yeganə İsgəndərovaya atası

**Bilal Əli oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları, 98**
**1-ci mərtəbə,**
**tel.: 595-24-97**

**Lisenziya N - 022633**
**İndeks -0269**
**Sayı 4000**
**Sifariş: 896**